# Şuşa Musiqili Dövlət Dram Teatrı: dünən və bu gün

**Şəhla Heydərli**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Azərbaycan.
E-mail: rejissor_71@mail.ru

**Annotasiya.** Qarabağın cənnətməkan guşəsi olan Şuşa bir mədəniyyət ocağı kimi tanınır. Neçə-neçə dünyaşöhrətli insanlar məhz Şuşanın yetirmələridir. İncəsənətin bir çox istiqamətlərində inkişaf yolu ilə irəliləyən Şuşa mədəniyyəti, yaddaşlarda qalan əsərlərlə salnamələrə həkk olunmuşdur. Şuşalıların mədəni həyatının inkişafı, xalqın maariflənməyi kimi mühüm amil üçün teatrın inkişafı da öz növbəsində böyük rol oynamışdır.
Qırmızı ordu Azərbaycanı ilhaq etdikdən sonra Fizulidə, Ağdamda, Şamaxıda, Şuşada teatrın fəaliyyət imkanları kifayət qədər genişləndi. Şuşada dram dərnəklərində tez-tez tamaşalar oynanılırdı. Digər rayonlarla müqayisədə Şuşa teatr həvəskarlarının yaradıcılığı fərqlənirdi. Çünki onların məlahətli səsə malik olmaları tamaşaların uğurlu alınmasına imkan yaradırdı. Şuşa teatrının repertuarında dahi Azərbaycanın bəstəkarı Üzeyir Hacıbəylinin əsərlərinin özünəməxsus yeri vardır.
**Açar sözlər:** teatr, Şuşa, rejissor, aktyor, tamaşa

**Məqalə tarixçəsi:** göndərilib – 16.01.2022; qəbul edilib – 27.01.2022

# Shusha State Musical Drama Theater: yesterday and today

**Shahla Haydarli**
Azerbaijan State University of Culture and Arts. Azerbaijan.
E-mail: rejissor_71@mail.ru

**Abstract.** Shusha, the paradise of Karabakh, is known as a cultural center. The people who have revealed many talents and are known in the world are the children of Shusha. Shusha culture, which has developed in many areas of art, is engraved in chronicles with memorable works. The development of the theater played an important role for such an important factor as the development of the cultural life of the people of Shusha, the enlightenment of the people.
After the annexation of Azerbaijan by the Red Army, the opportunities for theatrical activity in Fizuli, Aghdam, Shamakhi and Shusha expanded considerably. In Shusha, drama groups often performed. Unlike other regions, the creativity of Shusha theater lovers was different. In this field, they had a beautiful voice and this allowed the performances to be successful. The works of Uzeyir Hajibeylı, a composer of Azerbaijan, have a special place in the Shusha theatrical repertoire.
**Keywords:** theater, Shusha, director, actor, performance

**Article history:** received − 16.01.2022; accepted − 27.01.2022

## Giriş / *Introduction*

Avropa və Şərq mədəniyyətinin qovuşduğu bir məkanda çox qədim kökləri və ənənələri olan Şuşa, tacirləri və səyyahları özünə cəlb edən qədim mədəniyyət mərkəzi olmuşdur. Xalqı maarifləndirmək kimi mühüm amalın həyata keçirilməsində teatrın rolunu dərindən dərk

edən ziyalılar daha böyük həvəslə səy göstərməyə çalışırdılar.

XVI əsrdə Xalq teatrı ilə yanaşı, şiəliyi təbliğ edən və yeni tamaşa növü sayılan "şəbih"lərə başqa şəhərlərdə olduğu kimi, Şuşada da geniş yer verilirdi. Şuşadakı "şəbih" tamaşalarını öz tablosunda əks etdirən rəssam V.Verşaginin əl işlərinə diqqət yetirdikdə emosional hisslərlə çulğalaşmaqla insan sanki kütləvi faciənin iştirakçısına çevrilir [2, s.3].

## Əsas hissə / *Main Part*

Şuşa teatr kollektivi öz repertuarında "Pəri cadu", "Dağılan tifaq", "Ağa Məhəmməd şah Qacar" (Əbdürrəhim bəy Haqverdiyev), "Müsibəti Fəxrəddin", "Pəhlivani-zəmanə" (Nəcəf bəy Vəzirov), "Nadir şah" (Nəriman Nərimanov), "Aydın", "Oqtay Eloğlu", "Almaz", "1905-ci ildə" (Cəfər Cabbarlı), "Eşq və intiqam", "Laçın yuvası" (Süleyman Sani Axundov), "Dəmirçi Gavə" (Şəmsəddin Sami), "Qaçaq Kərəm" (Vano Mçedaşvili), "Qəzavat" (Lanskoy) kimi faciə və dram əsərlərinə xüsusi diqqət yetirilirdi [2, s.14]. XIX əsrin ortalarında Şuşanın mədəni həyatında inkişaf duyulmaqda idi. Canlanmanın və inkişaf prosesinin mühüm mərhələsi kimi 1848-ci ildən sonra tamaşaların oynanılması üçün səhnələrin olması mühüm amil kimi qiymətləndirilə bilər. Şuşalıların mədəni səviyyəsinin yüksək olmasına, gözəl dekorasiyalar dram sənətinin həvəskarlarından olan gözəl ifaçıların oynadığı rollar, zövqlə bəzədilmiş lojalar və artıq şəhərdə teatr komponenti olan qarşılıqlı tamaşaçı ünsiyyətinin mövcud olması, böyük zəmin yaradırdı. M.F.Axundovun 1850-ci ildə yazdığı "Sərgüzəşti vəziri xani Lənkəran", "Hekayəti Müsyö Jordan həkimi nəbatat və Dərviş Məstəli şah", "Hekayəti Molla İbrahimxəlil kimyagər" əsərləri Tiflisdə, Peterburqda tamaşaya qoyulsa da, öz məmləkətimizdə bu əsərlərdən çoxlarının xəbəri yox idi. Maraqlıdır ki, M.F.Axundov bu sahəni inkişaf etdirmək məqsədilə üzünü Bakıya deyil, Şuşaya tutur. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, o dövr camaatın teatr tamaşalarına güclü axını din xadimlərinin və cahillərin xoşuna gəlmirdi. Teatr tamaşaları, şeir-sənət məclisləri keçirmək üçün Şuşa ziyalıları tərəfindən yaradılmış teatr salonunu qumarxanaya çevirmişdilər. Bu situasiya ilə mütərəqqi fikirli insanlar heç cürə barışa bilməzdilər.

Möhtəşəm təbiəti və istedadlı insanları ilə yanaşı, Şuşa həm də ədəbiyyat və incəsənət beşiyi olmuşdur. Firudin bəy Şuşinski yazırdı: "*XIX əsrin 90-cı illərində Şuşada xeyli musiqili və ədəbi incəsənət məktəbləri olmuşdur. Bunlardan musiqişünaslar məclisini, xanəndələr məclisini, xəttatlar məclisini, nəqqaşlar məclisini və nüsxəbəndlər məclisini fərəh hissi ilə söyləmək olar*" [2]. Şuşanın mədəni mühiti bu amillərlə nəfəs alırdı. Şuşalı gənclər müxtəlif ölkələrə təhsil almağa üz tuturdular. Onlar təhsil aldıqları mühiti öz doğma şəhərlərinə ötürürdülər və nəticədə şuşalıların bəşəri dəyərlərə yiyələnməsinin forma və üslubları zənginləşərək, dünya sivilizasiyasına can atmaqları kəskin şəkildə qabarırdı. Həmin dövrdə Şuşa şəhərinin abadlıq işləri də seziləcək dərəcədə artmışdı. Zaman keçdikcə də teatra maraq göstərən ziyalıların sayı artırdı. Azərbaycanın görkəmli yazıçısı Ə.B.Haqverdiyev 14 yaşı olan dövrdəki təəssüratları haqda yazır: "İlk dəfə tamaşaya gedəndə pərdə açılan kimi, fokus nümayiş olunacağını sandım. Birdən gözlərim müəllimimə sataşdı. Onun başında buxara papaq, belində isə xəncər var idi. Get-gedə müəllimlərimin hamısını səhnədə gördüm və teatrın, komediyanın nə olduğunu anladım [1, s.59]. Gənc Əbdürrəhim elə həmin ildə (1884) ilk pyesi olan "Hacı Daşdəmir"-i yazır. Şuşada riyaziyyat və bu kimi fənnlərdən dərs deyən müəllimlər tamaşalarda fəal iştirak edirdilər və tamaşalardan əldə olunan bütün vəsait xeyriyyə məqsədləri üçün xərclənirdi. Getdikcə teatr tamaşaları üçün satılan biletlər həddindən artıq bahalaşırdı, amma buna baxmayaraq, biletlər tez satılırdı. Şuşada XIX əsrin 40-cı illərindən rus dilində də tamaşalar göstərilirdi. Bu truppanın repertuarında dünya dramaturgiyasından nümunələr nümayiş etdirilirdi. Məsələn, 1893-cü ildə Haşım bəy Vəzirov V.Şekspirin "Otello" əsərini ilk dəfə Azərbaycan dilinə tərcümə etmişdir. Bundan başqa Haşım bəy Vəzirovun "Evlənmək su içmək deyil" komedeiyası Şuşanın teatr tarixində

qalmaqallı iz qoymuşdur. Pərdələrin birində Qarabağda olan adət üzrə qumar oynayanlar üçün otaq ayrılır. Mübahisə zamanı biri-digərinə "Həzrət Abbasa and olsun", – deyib qışqırır və zalda haray-həşir qopur. Zalda oturanlar Həzrət Abbasın adının çəkilməsinə görə, xəncər və tapançalarına əl atırlar, tamaşa pozulur və aktyorlar arxa qapıdan qaçırlar. Daha sonra bir çox aktyorlar hətta şəhəri belə tərk etməli olurlar. Haşım bəy Vəzirov isə bir müddət gizlənməli olur. Sonradan şəhər ziyalılarının dəstəyi ilə axundun yanına gəlir və əsərin əlyazmasını göstərib dinə qarşı heç nə yazılmadığını söyləyir.

1920-1937-ci illərdə Şuşada teatr prosesi bir qədər də canlanıb. Teatr həvəskarlarının daha fəalları Xosrov Mamayi, Xuduş Abbaszadə, Mikayıl Vəlixanov, Heydər Şəmsizadə, Rəhim Mirzəzadə, Cəmil Lazımzadə, Cəmil Ələkbərzadə, Xudadat Tağızadə, Nəriman Axunov, Mahmud Şərifzadə, Əbdüləli Oruczadə və başqaları olublar [2, s.22].

Azərbaycanın sabiq mədəniyyət naziri Polad Bülbüloğlunun himayədarlıq və təşəbbüsü ilə Şuşa teatrı 1992-ci ilin avqust ayının əvvəlində Bakıda Gənc Tamaşaçılar Teatrının binasında yerləşdirildi və fəaliyyəti üçün şərait yaradıldı. 1993-cü il fevral ayının 12-də teatr Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" musiqili komediyasının tamaşası ilə pərdəsini teatrsevərlərin üzünə açdı. Sonra görkəmli pedaqoq, rejissor, aktyor, Xalq artisti Rza Təhmasib "Arşın mal alan" musiqili komediyası əsasında incəsənətimizin sönməz ulduzları olan Rəşid Behbudov və Leyla Bədirbəylinin iştirakı ilə bədii film çəkmişdir. Sonradan "Arşın mal alan" musiqili komediyası Avropada, Yaxın Şərqdə, sovet dönəminin bir çox teatr məkanlarında səhnəyə qoyulmuşur. Gözləri başqalarının torpaqlarında olan mənfur qonşularımız Üzeyir bəy Hacıbəyovun bu əsərinin erməni müəllifinə məxsus olduğunu iddia etmişdilər...

1993-cü ildə isə Həsən Əbluc M.F.Axundovun "Hekayəti Misyo Jordan həkimi nəbatat və Dərviş Məstəli şah cadukuni məşhur" komediyasını səhnələşdirmək qərarına gəlir. Yaradıcı heyət – Rauf Şahsuvarov (Müsyö Jordan), Zahid Mehdiyev (Hatəmxan ağa), Mahi Səfərova (Şəhrəbanu xanım), Aygün Teymurova (Şərəfnisə), Səidə Əliyeva (Xanpəri), Müşfiq Mehdiyev (Şahbaz bəy), Sərhəd Əliyev (Dərviş Məstəli şah), Azad Məmmədov (Qulaməli) və başqaları tamaşaçının gurultulu alqışını qazana bilmişdilər. Daha sonralar "Nənəmin şahlıq quşu" operettasına quruluş verildi. Tamaşanın quruluşçu rejissoru olan Faiq Zöhrabov dirijor Gülağa Zeynalov, rəssam Nazilə Əhmədova, baletmeystr Rəfiqə Həsənova kimi istedadlı insanları ətrafında cəmləşdirə bilmişdi. Yadigar Muradov, Sərhəd Əliyev, Gülsabah Quliyeva, Zahid Mehdiyev, Mahi Səfərova, Ceyran Əzimova, Aygün Teymurova, Müşfiq Mehdiyev, Azad Məmmədov, Dilbər Mahmudova, Elmira Əliyeva kimi aktyorlar bu tamaşada iştirak etmişdilər. "Nənəmin şahlıq quşu" operettası Şuşa Teatrının 1993-cü ildəki uzunömürlü tamaşaları siyahısındadır. 1994-cü ildə isə Faiq Zöhrabov quruluşçu-rejissor kimi teatra dəvət alıb və "Durna" musiqili komediyasına quruluş verib. Şuşa teatrında fəaliyyət göstərən aktyorların üstün cəhətlərindən biri də odur ki, onlar gözəl səsə malik olmaqla yanaşı, həm də milli musiqi alətlərinin mahir ifaçısıdırlar.

1994-cü ildə "Him-cim" Pantomim festivalı keçirilmiş, bu festivalda Şuşa teatrı "Üç nöqtə, vergül, nida, sual" tamaşası ilə fərqlənmişdir. Sözügedən tamaşanın rejissoru Rauf Şahsuvarov olub. Yaradıcı heyət festivalın mükafatına layiq görülmüşdür.

1998-ci ildə keçirilən Ümumrespublika Eksperimental Tamaşalar Festivalında Şuşa Musiqili Dövlət Dram Teatrı S.Bekketin "Addım səsləri" pyesinin motivləri əsasında "Rəngli, rəngli, ağ-qara" eksperimental tamaşası ilə iştirak edib. Quruluşçu rejissoru Kəmalə Məcidova olan bu tamaşada əsas rolları Şükufə Musayeva və Məlahət Əhmədova oynayıb. Şuşa teatrının festivalda uğurlu çıxışına görə münsiflər heyəti teatrı diploma layiq görüb. Daha sonralar rejissor Rauf Şahsuvarov "Aydın" dramının səhnə təcəssümünü öz üzərinə götürüb. "Aydın" Şuşa teatrının repertuarında uzunmüddətli tamaşa kimi tanınırdı. Qeyd edim ki, S.Bekketin əsərləri ölkənin Gənclər, Sumqayıt, Yuğ, Gəncə, Şəki və bir çox teatrlarında da səhnəyə qoyulmuşdur.

Bakıda tamaşaçı auditoriyasını daha çox özünə cəlb etmək üçün Şuşa teatrı müxtəlif janrlı bir-birindən maraqlı tamaşalar hazırlayıb.

Bunlardan S.Qədirzadənin “Ayının min oyunu” (rej. Y.Muradov), V.Qaufun “Xəlifə Leylək” (rej. O.Salamov), B.Appayevin “Gözəlləri necə qaçırmalı” (rej. K.Məcidova), M.F.Axundov “Hekayəti Müsyö Jordan həkimi nəbatat və Dərviş Məstəli şah cadukinu məşhur” (rej. K.Məcidova) kimi orijinal yozumlu tamaşaların adlarını çəkmək olar.

Yeri gəlmişkən, Şuşanın və Şuşa teatrının məşhur yetirmələrindən Əbdürrəhim bəy Haqverdiyev (1870-1933), Üzeyir bəy Hacıbəyov (1885-1948), Mirzə Muxtar (1841-1929), Nəcəf bəy Vəzirov (1854-1926), Zülfüqar Hacıbəyov (1884-1950), Əfrasiyab Bədəlbəyli (1904-1976), Bülbül (1897-1961), Niyazi (1912-1984), Mehdi Məmmədov (1918-1985), Şəmsi Bədəlbəyli (1911-1987), Barat Şəkinskaya (1914-1999), Süleyman Ələsgərov (1924-2000), Məhluqə Sadıqova, Firəngiz Mütəllimova və başqalarının adlarını fəxrlə qeyd etmək olar.

XIX əsrin əvvəli, XX əsrin sonlarında Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şuşa “Qafqazın sənət məbədi”, “Kiçik Paris”, “Azərbaycanın musiqi beşiyi”, “Zaqafqaziyanın konservatoriyası” kimi tanınırdı.

### Nəticə / *Conclusion*

1992-ci il may ayının 8-də erməni birləşmələri Şuşa şəhərini işğal etdilər. Ölüm və itkin düşənlərin sayının çoxluğundan əlavə, 600-a yaxın tarixi-memarlıq abidəsini, o cümlədən Gövhər ağa məscidini, Molla Pənah Vaqifin məqbərəsini, Xurşidbanu Natavanın evini darmadağın etmiş, məktəbləri, muzeyləri tanınmaz hala salmışdılar. Şəhərin tarixi muzeyinin 5000-dək əşyasını, Üzeyir Hacıbəyovun 300-dən çox əşyasını, Mir Mövsüm Nəvvabın 100-dən çox əşyasını, Bülbülün 400-dən çox əşyasını, Qarabağ Tarix Muzeyinin 1000-dən çox əşyasını, Azərbaycan xalçalarını və s. talan etdilər.

Respublika Prezidentinin dövlət idarəçiliyi, qeyrətli oğullarımızın şücaəti sayəsində 8 noyabr 2020-ci ildə Şuşa şəhəri Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad olundu. Tarix boyu neçə-neçə işğal cəhdlərinə və işğala məruz qalmasına baxmayaraq, bu gün Qarabağın gözü sayılan Şuşa şəhərindən “Qarabağın şikəstəsi” sədasının gəlməsi hər bir azərbaycanlı kimi, məni də qürurlandırır. Üstəlik bu yaxınlarda Şuşa Musiqili Dövlət Dram Teatrı 148-ci mövsümünün açılışını da edib. Açılışda uşaqlar üçün Altay Məmmədovun “Dəli Domrul” tamaşası təqdim edilib.

Şuşa şəhərinin günü-gündən inkişaf dinamikası göz qabağındadır, inanıram ki, üzümüzə gələn illərdə də bir çox ürəkaçan digər yeniliklərin şahidi olacağıq.

### Ədəbiyyat / *References*


1. Məmmədli Q. “Azərbaycan teatr salnaməsi”. Bakı: Yazıçı, 1975.
2. Vəliyev Ə. Teatr sənətimiz: dünən, bu gün, sabah... Bakı: Orxan, 2005.
3. Yaqub Əlioğlu. Şuşa teatrı. Bakı, 2001.


## Шушинский Государственный Драматический Музыкальный Театр: вчера и сегодня


**Шахла Гейдарли**
Азербайджанский государственный университет культуры и искусства. Азербайджан.
E-mail: rejissor_71@mail.ru



**Резюме.** Шуша, рай Карабаха, известен как культурный центр. Люди, раскрывшие многие таланты и известные в мире, – это дети Шуши. Шушинская культура, получившая развитие

во многих областях искусства, запечатлена в летописях памятными произведениями. Развитие театра происходило в борьбе за такой важный фактор, как развитие культурной жизни шушинцев, просвещение народа.

После аннексии Азербайджана Красной Армией возможности театральной деятельности в Физули, Агдаме, Шемахе и Шуше значительно расширились. В Шуше часто выступали драматические коллективы. В отличие от других регионов, творчество любителей шушинского театра было другим. У них был красивый голос, и они играли с большим удовольствием. Произведения Узеира Гаджибейли, феномена Азербайджана, занимают особое место в репертуаре шушинского театра.

**Ключевые слова:** театр, Шуша, режиссер, актер, спектакль